Azərbaycan Respublikasının dövlət

Binəqədi rayonu bu gün inkişafının

Təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan suveren dövlətimiz günü-gündən daha da çiçəklənir

Xalqımız dövlət müstəqilliyinin bərpasının 25 illiyini qeyd edir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev "Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında" 11 oktyabr 2016-cı il tarixli Sərəncam imzalamışdır. Bu müddət ərzində ölkəmizin regionlarında, eləcə də paytaxtın qəsəbə və kəndlərində həyata keçirilən və indi də davam edən abadlıq-quruculuq, tikinti işləri Binəqədi rayonunun simasında da aydın nəzərə çarpır. Öz inkişaf tempinə görə Bakının qabaqcıl, gözəl rayonlarından olan Binəqədi ümumilikdə müstəqil respublikamızın tərəqqisinə öz töhfəsini verir.

Tarix dəfələrlə sübut edib ki, müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir. Gərək sınaqlara hazır olasan, hər bir əziyyətə və çətinliyə dözməyi bacarasan. Tale elə gətirdi ki, Azərbaycan bir əsrdə iki dəfə müstəqillik əldə etmək, özünün suveren dövlətini yaratmaq imkanı qazandı. Təəssüf ki, birinci imkan xarici müdaxilə, daxili çəkişmələr və beynəlxalq təminatın olmaması səbəblərindən itirildi. 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. İkinci tarixi imkan bir də 70 il sonra yarandı. Sovet imperiyasının dağılması Azərbaycan xalqına öz milli müstəqilliyini bərpa etmək imkanı verdi. 1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Bununla da Azərbaycanın tarixində yeni dövrün başlanğıcı qoyuldu.

Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini elan etsə də, o zamankı rəhbərliyin yarıtmaz fəaliyyəti nəticəsində çox keçmədən ölkə nəinki istiqlalını, bütövlükdə, öz varlığını itirmək təhlükəsi ilə üz-üzə qalmışdı. Ulu öndər Heydər Əliyevin xalqın istəyi ilə hakimiyyətə gəlməsi ölkə daxilində mövcud olan siyasi problemlərin, özbaşınalığın qısa bir dövr ərzində həll olunmasını təmin etdi.

Bəşəriyyətin çoxəsrlik tarixi təcrübəsi göstərir ki, xalqların və dövlətlərin inkişafında liderlərin rolu əvəzsizdir. Güclü lideri olan dövlətlər və millətlər yüksək inkişaf yolu keçib və tarixi uğurlar əldə ediblər. Belə liderlər bizim xalqın tarixində də yetişib, Azərbaycanımızın inkişafında, dövlətçiliyimizin yaranıb möhkəmlənməsində, milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında əhəmiyyətli rol oynayıblar. Onların arasında öz işıqlı əməlləri ilə xalqı müstəqilliyə qovuşdurub, dövlətçiliyimizin daha da möhkəmlənməsində mühüm xidmətləri olan ümummilli lider Heydər Əliyevin adı qürur hissi ilə çəkilir. Azərbaycanın tarixi şəxsiyyətlərinin fövqündə önəmli yeri olan bu dahi insanın xalqımız qarşısındakı xidmətləri ölçüyəgəlməzdir. Bugünkü dövlətimizin müstəqilliyinin, suverenliyinin və azərbaycançılıq məfkurəsinin mövcudluğu məhz ümummilli lider Heydər Əliyevlə bağlıdır.

1993-cü ilin ortasından başlayaraq aparılan ardıcıl və məqsədyönlü siyasət nəticəsində ictimai-siyasi sabitliyin təmini, istehsalda yaranmış geriləmə proseslərinin qarşısının alınması və digər tədbirlərdən sonra iqtisadiyyatda tənəzzül tədricən aradan qaldırıldı. Bununla da Azərbaycanın iqtisadi inkişafının mahiyyətcə yeni mərhələsinin təməli qoyuldu. Əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların ilkin nəticələri aparılan siyasətin düzgünlüyünü, Azərbaycanın bazar iqtisadiyyatı yolunda inamlı addımlarını təsdiq edirdi.

...Paytaxtın ən böyük yaşayış və sənaye rayonlarından olan Binəqədi həm postsovet dövründə, həm də müstəqillik illərində respublikamızın iqtisadiyyatında mühüm rol oynayıb. Ulu öndər Heydər Əliyev keçmiş SSRİ dövründə respublikamıza rəhbərlik edərkən dəfələrlə Binəqədi rayonuna səfər edib, sakinlərin güzəranı, sosial vəziyyəti ilə bilavasitə yerində tanış olub, problemlərinin həllinə köməklik göstərmişdir. Eyni zamanda, rayonun həm sənaye potensialının formalaşmasına, həm də əhalinin sosial rifahının yaxşılaşmasına bilavasitə təsir göstərən tədbirlərin həyata keçirilməsinə öz töhfəsini vermişdir. Sovet imperiyası dövründə respublikanın rəhbəri kimi, 1979-cu ilin noyabrında Xırdalan ət-süd kombinatında, 24 fevral 1984-cü ildə 3 saylı evtikmə kombinatında, 24 aprel 1984-cü ildə Biləcəri Dəmiryol qovşağında olması və digər səfərləri, həmçinin müstəqillik illərində Azərbaycan Respublikasının Prezidenti kimi rayona dəfələrlə etdiyi səfərlər ümummilli liderin Binəqədi rayonuna və sakinlərinə hər zaman olduğu kimi, diqqət və qayğısının bariz təcəssümüdür. 1996-cı ildə Biləcəri qəsəbəsində gedən abadlıq işləri ilə yaxından tanış olmaq üçün qəsəbəyə səfər etmiş ulu öndər rayonda aparılan tikinti işlərini yüksək qiymətləndirmişdir. Ümummilli liderin dəstəyi ilə qəsəbədə dəmiryol təsərrüfatının yenidən qurulması, ümumilikdə ölkə iqtisadiyyatına töhfə verməklə yanaşı, həmçinin rayon sakinlərinin sosial rifah halının yaxşılaşmasında da böyük rol oynamışdır. Dahi rəhbərin aşağıdakı fikirləri onun Binəqədi sakinlərinə xüsusi diqqətinin ifadəsidir: "Binəqədi əhalisinə görə Bakının ən böyük rayonlarından biri olubdur, burada Azərbaycanın, Bakının çox dəyərli vətəndaşları yaşayır".

Davamlı inkişaf siyasəti etibarlı əllərdədir

Dahi şəxsiyyət, müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin əsasını qoyduğu inkişaf siyasəti bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Yeni çalarlarla zənginləşdirilmiş sosial-iqtisadi siyasətin strateji məqsədləri sərbəst bazar münasibətlərinə və davamlı innovativ inkişaf qabiliyyətinə malik olan sosial-yönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması və dünya təsərrüfat sisteminə inteqrasiyasının təmin olunmasıdır. Dinamik inkişaf məntiqinə əsaslanan bu siyasətin həyata keçirilməsi nəticəsində qazanılmış uğurlar daha da möhkəmləndirilib, makroiqtisadi sabitlik qorunub saxlanılıb, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sahələrinin, regionların inkişafı sürətlənib, strateji valyuta ehtiyatlarının səmərəli istifadəsi təmin olunub, konservativ xarici borclanma strategiyası həyata keçirilib, sahibkarlığa dövlət dəstəyi gücləndirilib, əhalinin sosial rifahı davamlı olaraq yaxşılaşıbdır.

Dövlətimizin başçısı bu illərdə Binəqədi rayonuna etdiyi səfərlərdə abadlıq və quruculuq üzrə aparılan hər bir işlə yaxından tanış olub, müxtəlif infrastruktur və yeni sosial obyektlərin açılışında iştirak edib. Ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi bütün vədləri yerinə yetirən və beləliklə, Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan Prezident İlham Əliyev hər bir addımında vətəndaşların mənafeyini əsas götürür. Ölkə başçısı son 13 il ərzində 46 dəfə Binəqədi rayonuna səfər edib. 2013-cü il aprelin 22-də rayona səfəri çərçivəsində Prezident İlham Əliyev Biləcəri qəsəbəsindəki Dəmiryolçuların mədəniyyət-istirahət parkının əsaslı təmir və yenidənqurmadan sonra açılışında iştirak edib. Xatırladaq ki, parkda əsaslı təmir işləri 2011-ci il 13 aprel tarixli sərəncam əsasında həyata keçirilib. Uzun müddət baxımsız vəziyyətdə qaldığından yararsız hala düşən parkda qanunsuz tikililər sökülüb və ərazisi 4 hektar olan parkda 20 min kvadratmetrlik sahədə yaşıllıq salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb, fəvvarə, mini-futbol meydançası, istirahət guşələri yaradılıb. Parkın ətrafındakı evlərin və iaşə obyektlərinin dam örtükləri, fasadı yenilənib. 2013-cü il iyulun 3-də yenidən rayonda olan Prezident İlham Əliyev Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasının açılışında iştirak edib və icra hakimiyyətinin inzibati binasında yenidənqurmadan sonra yaradılmış şəraitlə tanış olub. Yeri gəlmişkən, ötən əsrin 90-cı illərində yaradılaraq qurulan Yeni Azərbaycan Partiyasının rayon təşkilatları arasında ilk inzibati binası tikilən məhz Binəqədi rayon təşkilatı olub. 2013-cü ildə istifadəyə verilən inzibati bina isə siyasi əqidədaşları bir araya toplaya bilən daha bir gözəl məkan olub. Dövlət başçısı, həmçinin, ümummilli lider Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstirahət Parkının yenidənqurmadan sonra açılışında iştirak edib. Qeyd edək ki, parkın giriş hissəsində, YAP Binəqədi rayon təşkilatının yeni inşa edilən inzibati binasının qarşısında ulu öndər Heydər Əliyevin büründən ucaldılmış abidəsi bu gün rayon əhalisinin və qonaqların ziyarətgahına çevrilib. Paytaxt sakinlərinin istirahətinin mənalı təşkili üçün hər cür şəraitin yaradıldığı park 4,5 hektar sahəni əhatə edir. Parkın landşaft örtüyündə 167 növ nadir ağac, kol və bitki növlərindən istifadə edilib. Uşaqlar üçün müxtəlif attraksionlar, yelləncəklər, digər idman və oyuncaq elementləri quraşdırılıb. Parkın mərkəzində müasir texnologiyalardan istifadə etməklə milli və dünya musiqi nümunələrindən təşkil olunmuş kompozisiyalardan ibarət musiqili fəvvarə də yaradılıb. Burada, həmçinin, müxtəlif tədbirlərin keçirilməsi üçün avanqard üslubda səhnə və amfiteatr formasında oturacaqlar quraşdırılıb.

Prezident İlham Əliyev 2014-cü ildə də Binəqədi rayonuna səfərlərini davam etdirib. Avqustun 11-də Binəqədi rayonunda 115 nömrəli tam orta məktəbdə həyata keçirilən əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olan dövlətimizin başçısı sentyabrın 13-də 182 nömrəli tam orta məktəbin yeni binasının açılışında da iştirak edib. Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva 2014-cü il oktyabr ayının 22-də Binəqədi rayonunun ərazisində yerləşən Stend Atıcılığı İdman Kompleksində həyata keçirilən tikinti işlərinin gedişi ilə tanış olub.

Prezident İlham Əliyev rayon ərazisində inşa olunan Heydər məscidinin tikinti işlərini daim diqqət mərkəzində saxlayıb. 2014-cü il dekabrın 24-də burada həyata keçirilən son tamamlama işləri ilə yaxından tanış olub. Xatırladaq ki, dövlətimizin başçısının tapşırığı ilə inşa olunan bu yeni məscid 12 min kvadratmetr sahədə salınıb. Məscidin fasadı Şirvan-Abşeron memarlıq üslubunda xüsusi daşlarla üzlənilib. Tikinti işləri zamanı bəzək elementləri xüsusi ustalıqla yerinə yetirilib. Ornamentlərin zənginliyi məscidin fasadının arxitekturasında əlavə harmoniya yaradır. Burada xüsusi bəzək elementlərindən istifadə olunub, günbəzin kənarlarına Quran ayələri yazılıb. Hündürlükləri 55 metr və 35 metr olan baş və ikinci günbəzlər məscidin daxilinə xüsusi gözəllik verir. Dekabrın 26-da isə dövlət başçısı xanımı Mehriban Əliyeva ilə birlikdə Heydər məscidinin açılışında iştirak edib. Qafqazın ən böyük məscidi hesab olunan Heydər məscidi həm də xarici qonaqlar üçün ziyarətgaha çevrilib. Elə bu yaxınlarda oktyabrın 2-də ölkəmizə səfəri çərçivəsində Roma Papası Fransisk Heydər məscidində olub. Papa Fransiskin burada Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə və Azərbaycandakı dini icmaların nümayəndələri ilə görüşü təşkil olunub. Görüşdə Şeyxülislam Allahşükür Paşazadə Roma Papasına Heydər məscidi barədə müfəssəl məlumat verib.

2015-ci il martın 9-da Binəqədiyə səfəri çərçivəsində Prezident İlham Əliyev, xanımı, birinci Avropa Oyunları Təşkilat Komitəsinin sədri Mehriban Əliyeva və ailə üzvləri paytaxtın Biləcəri qəsəbəsində Bakı Atıcılıq Mərkəzinin açılışında olublar. Qeyd edək ki, Bakı Atıcılıq Mərkəzinin baş planına əsasən, ərazidə inşa edilən bina və qurğuların hamısı Beynəlxalq Atıcılıq Federasiyasının tələblərinə cavab verir. Bu idman obyektinin ərazisi genişləndirilərək 19,6 hektara çatdırılıb. Burada geniş quruculuq işləri aparılmış, yaşıllıq zolaqları salınıb, ətraf abadlaşdırılıb. Mərkəzin güllə atıcılığı binası müasir səviyyədədir. Binada müxtəlif funksional sahələr, o cümlədən kafe, VİP gözləmə və istirahət, idarəetmə, tədris, dopinq yoxlama, silahsaxlama, həmçinin təchizat-xidmət otaqları, 55 yerlik 2 konfrans və mətbuat zalı, tibb məntəqəsi, fitnes zal var.

Həmin il sentyabrın 7-də dövlət başçısı Bakının Binəqədi rayonundakı 283 nömrəli orta məktəbdə həyata keçirilən təmir və yenidənqurma işlərindən sonrakı vəziyyətlə tanış olub və inşaat işlərinin yüksək səviyyədə aparıldığını bildirib. Sentyabrın 21-də isə ölkə Prezidenti rayon ərazisində yerləşən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Respublika Əlillərin Bərpa Mərkəzinin əsaslı yenidənqurmadan sonra açılış mərasimində iştirak edib. Aparılan yenidənqurma işləri zamanı binanın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin sağlamlıq imkanları məhdud olan insanlara qayğısı, onlar ilə keçirdikləri görüşləri əks etdirən fotolardan ibarət guşə yaradılıb. Xatırladaq ki, Respublika Əlillərin Bərpa Mərkəzi 1986-cı ildə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Cənubi Qafqazda bu sahədə ilk tibb ocağı kimi fəaliyyətə başlayıb.

2015-ci il dekabrın 28-də Prezident İlham Əliyev Binəqədi rayonunda Kənd Təsərrüfatı Nazirliyinin "Baytarlıq şəhərciyi"nin açılışında iştirak edib. "Baytarlıq şəhərciyi"ndə Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin, Respublika Baytarlıq Laboratoriyasının və Baytarlıq Elmi-Tədqiqat İnstitutunun yeni inzibati binaları yerləşir. Layihənin həyata keçirilməsində məqsəd respublikada sanitariya və sağlamlığın qorunmasında, təhlükəli yoluxucu xəstəliklərin qarşısının alınmasında, insan sağlamlığı üçün yararlı və təhlükəsiz heyvandarlıq məhsullarının istehsalı, həmçinin əhalinin insan və heyvanlar üçün təhlükəli olan xəstəliklərdən qorunmasında böyük rolu olan baytarlıq xidməti işinin yaxşılaşdırılması, bu sahədə fəaliyyət göstərən qurumların maddi-texniki bazalarının möhkəmləndirilməsi, onların avadanlıq və baytarlıq preparatları ilə təminatına şərait yaradılmasından ibarətdir.

Prezident İlham Əliyev 2016-cı ilin ötən dövrü ərzində Binəqədi rayonuna 3 dəfə səfər edib. Dövlət başçısı cari il aprelin 19-da Binəqədi rayonunda inşa olunan "Azəravtoyol" ASC-nin yeni inzibati binasının açılışında iştirak edib. 1,7 hektar sahəsi olan bu ərazidə genişmiqyaslı təmir-tikinti, abadlıq-quruculuq işləri aparılıb. İnzibati binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulub, dahi rəhbərin həyatı və siyasi fəaliyyəti ilə bağlı fotolardan ibarət guşə yaradılıb. Burada, həmçinin, dövlətimizin başçısının Azərbaycanda yol-nəqliyyat infrastrukturunun inkişafına göstərdiyi diqqət və qayğını əks etdirən fotolar da var. Həmin gün dövlətimizin başçısı Bakı Metropoliteninin yeni - bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının açılışında da iştirak edib. Qeyd edək ki, Metropolitenin Bakı Beynəlxalq Avtovağzal Kompleksinə metro xəttinin çəkilməsi ilə bağlı tapşırığı Prezident İlham Əliyev 2008-ci ildə metronun "Nəsimi" stansiyasının açılışı zamanı vermişdi.

2016-cı il sentyabrın 14-də dövlətimizin başçısı Binəqədi rayonunda əsaslı təmir edilmiş 9 nömrəli Bakı Peşə Liseyinin bazasında yaradılmış IT STEP akademiyasının əsaslı təmirdən sonra açılışında iştirak edib. Ümumi sahəsi 2750 kvadratmetrdən çox IT STEP akademiyasında 8 yaşından 55 yaşınadək 2100 şəxs təhsil ala bilər. Akademiyada 17 kompüter sinfi, robot texnikası, bədii studiya, qrafik dizayn və fotostudiyadan ibarət 4 ixtisaslaşdırılmış laboratoriya fəaliyyət göstərir.

Gənclərin milli-mənəvi tərbiyəsi xüsusi önəm daşıyır

Azərbaycanda gənclərlə bağlı dövlət siyasətinin müəyyənləşdirilməsi, onun konturlarının cızılması ümummilli lider Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Bu gün Azərbaycan gəncləri dövlətimizin hərtərəfli qayğısı ilə əhatə olunub, bu sahədə qarşıya çıxan problemlər öz həllini operativ şəkildə tapır. Məhz buna görədir ki, respublika gəncləri ölkənin aparıcı qüvvəsinə çevriliblər. Gənclərə göstərilən dövlət qayğısı Binəqədi rayonunda da öz əksini tapıb. Əhalinin əsas hissəsini təşkil edən gənclər rayonun mədəni, sosial-iqtisadi həyatında fəallıq göstərirlər. Təsadüfi deyil ki, Binəqədidə mütəmadi olaraq gənclərlə bağlı müxtəlif mövzularda konfrans, iclas və görüşlər təşkil olunur, onlara vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik prinsipləri, milli-mənəvi dəyərlər aşılanır. Məhz bunun nəticəsidir ki, Binəqədi gəncləri müasir, intellektual, vətənpərvər ruhda yetişir, dövlətimizin iqtisadi və siyasi qüdrətinin inkişafında əllərindən gələni əsirgəmirlər. Yeniyetmə və gənclərin vətənə sədaqət ruhunda tərbiyələndirilməsi, milli adət-ənənələrimizin aşılanması ölkə rəhbərliyinin diqqətində olan əsas məsələlərdəndir. Gənclərin potensialının yüksəldilməsi, onların ölkənin sosial həyatında fəaliyyətinin daha da artırılması məqsədilə rayonda müxtəlif səpkili layihə və tədbirlər həyata keçirilir. "Binəqədi Gənclərinin Liderlik Məclisi" məhz belə layihələrdəndir. Layihə gənclərin gələcəkdə lider kimi yetişməsində böyük əhəmiyyətə malikdir. Ötən müddət ərzində layihə çərçivəsində rayon rəhbərliyinin iştirakı ilə gənclərlə görüşlər keçirilib, müxtəlif mövzularda fikir mübadiləsi aparılıb.